# BÖYÜK SƏLCUQLU DÖVLƏTİ

Bu dövlət XI–XII əsrlərdə mövcud olmuşdur. Başlanğıcda bir hökmdarın hakimiyyəti altında olan Səlcuqlu dövləti daha sonra Kirman Səlcuqluları, Suriya Səlcuqluları, Ana dolu Səlcuqluları kimi eyni sülalənin müxtəlif qolları tərəfindən idarə olun muşdu.

Səlcuqlu dövlətinin sərhədləri Yaxın Şərq (İordaniya, Suriya, İraq) və Ana doludan Şərqi Türküstana (Qaşqar) qədər uzanmışdı. Oğuz Yabqu dövlətinin sərkərdələrindən olan Səlcuq bəy yabqu ilə anlaşa bilmədiyinə görə özünə bağlı olan bir qrupla mərkəzdən ayrılıb Cənt şəhərində yerləşdi. Yeni dövlətin qurucuları isə Səlcuq bəyin nəvələri Toğrul bəy və Çağrı bəy oldu. Ataları cavan yaşında vəfat edincə Toğrul bəylə Çağrı bəy babaları Səlcuq bəyin himayəsində böyüdülər və babalarının ölümündən bir müddət sonra oğuzların başına keçərək dövlət qurmağa başladılar. 1040-cı ilə qədər Səlcuqlular Xorasanda Qəznəvilərə qarşı döyüşlərdə qalib gələrək müstəqillik əldə etdilər. Həmin ildə Dəndənəkan yaxınlığında baş vermiş döyüş Səlcuqluların Xora sana hakim olaraq Anadoluya yürüşlər etməsinə zəmin yaratdı.

Toğrul və Çağrı bəylərin qurduğu dövlətin ilk paytaxtı Nişapur şəhəri, birinci sultanı da Toğrul bəy oldu. Sonralar Səlcuqlu dövlətinin paytaxtı Rey və İsfa han şəhərləri olmuşdu. Toğrul bəyin hakimiyyəti dövründə İran, Yaxın Şərq, Azərbaycan və Cənubi Qafqazdakı yerli sülalələrin varlığına son qoyularaq onların torpaqları Səlcuqlu dövlətinin tərkibinə qatıldı. 1048-ci ildə Ərzurum yaxınlığında Bizansgürcü ordusunu məğlub edən Səlcuqlular Şərqi Anadoluya yürüşlər təşkil etməyə başladılar. İslam dünyasının dini lideri sayılan Abbasilər o dövr də Bağdadı zəbt etmiş Buveyhi sülaləsinin siyasi təzyiqi altında idilər. 1055-ci ildə Toğrul bəy xəlifə Qaimin xahişi ilə Bağdada girib bu veyhiləri xilafətin paytaxtından çıxardı. Bu hadisədən sonra Səlcuqluların İslam dünyasın da nüfuzu xeyli artdı. 1063-cü ildə Toğrul bəyin ölümündən sonra taxta onun qardaşı Çağrı bəyin oğlu Alp Arslan (1063–1072) keçdi. Alp Arslan öz hakimiyyəti dövründə Səlcuqlu dövlətinin sərhədlərini daha da genişləndirdi. O, Anadoluda 1071-ci ildə Malazgird döyüşündə Bizans imperatoru Romen Diogeni məğlub edərək əsir götür dü. Malazgird döyüşünün tarixi əhəmiyyəti ondan ibarətdir ki, bu döyüş türklərə Anadolunun qapılarını açmış oldu. Anadolunun içərilərinə axınlarını davam etdirən

Səlcuqlu sərkərdələri yeni torpaqlar fəth edərək yeni bəylik və dövlətlər qurdular. Bunlardan bəziləri aşağıdakı xəritədə yer almışdır.

Alp Arslan 1072-ci ildə vəfat etdikdən sonra Səlcuqlu dövlətinin başına oğlu Məlikşah keçdi (1072–1092). Məlikşahın hakimiyyət illəri Səlcuqluların ən parlaq dövrüdür. Bu dövrdə dövlətin sər hədləri şərq-qərb xəttində Mərkəzi Asiyadan Ana -doluya, şimal-cənub xəttində isə Qafqazdan Hicaza (Məkkə və Mədinə şəhərlərinin yerləşdiyi Ərəbistan bölgəsi) qədər genişlənmişdi.Məlikşahın ölümündən sonra taxt-tac uğrunda gedən mübarizə nəticəsində dövlət zəifləməyə başladı. Məlikşahın oğlu Səncər (1118–1157) taxta oturandan sonra dövləti yenidən bərpa etməyə cəhd etsə də, müharibə və üsyanlar nəticəsində Səlcuqlu dövləti öz tənəzzül dövrünə qədəm qoydu. 1157-ci ildə Sultan Səncərin ölümündən sonra Böyük Səlcuqlu dövləti süqut etdi.Səlcuqlu dövləti Malazgird zəfəri ilə türklərə yeni bir vətənqazandırmış, islam dininin yayılmasına öz töhfəsini vermiş və Səlib yürüşlərinə qarşı mücadilə apararaq islamı qoruma missiyasını öz üzərinə götürmüşdü.Səlcuqlular İran, İraq, Suriya və Anadoluda hakimiyyət qursalar da, heç vaxt öz əcdadlarının yaşadığı torpaqları unutmamış, davamlı olaraq buralarla əlaqələr yaratmağa çalışmışdılar.Bunu orta əsrlərdə Ana dolu və Azərbaycanda yenidən yazılan «Oğuz namə»lərdəki Türküstan, Sayram, Qazıqurd, Cənt, Taraz kimi qədim türk şəhər və bölgə adları da təsdiq edir.